# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

## S Ə R Ə N C A M

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq, ölkənin dövlət orqanları (qurumları) tərəfindən formalaşdırılmış informasiya sistemləri və ehtiyatlarına muxtar respublikanın analoji dövlət orqanlarının (qurumlarının) informasiya resurs bazalarının inteqrasiyasının təmin edilməsi məqsədilə:

1. Ölkənin dövlət orqanları (qurumları) tərəfindən formalaşdırılmış informasiya sistemləri və ehtiyatları muxtar respublikanın aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən təhlil edilsin və 2025-ci ilin 01 mart tarixinədək fəaliyyət istiqamətlərinə uyğun olaraq siyahı tərtib edilərək Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim edilsin.

2. Naxçıvan Muxtar Respublikasının aidiyyəti dövlət orqanları (qurumları) informasiya resurs bazalarının tərtib edilmiş siyahı üzrə ölkənin analoji informasiya sistemləri və ehtiyatlarına inteqrasiyasının tətbiqi imkanlarını araşdırsınlar və prosesin icrasına dair tədbirlər planını 2025-ci ilin 15 aprel tarixinədək Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “24” fevral 2025-ci il

№ 20s